*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2025, № 2* *ISSN: 2663-2926*
*Səhifə: 13-24* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2025.2.13*

**ƏDƏİ TƏHLİL. MƏTN POETİKASI**

# "Bir uzaq yaşıl ada" romanının bədii-fəlsəfi diskursu və müəllifin təhkiyə paradiqması

**Nizami Məmmədov Tağısoy**
Filologiya elmləri doktoru, professor
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: nizami.mamedov@mail.ru
ORCİD İD: 0009-0009-9837-4564

**Annotasiya.** Məqalə Məmməd Əliyevin "Bir uzaq yaşıl ada" romanının müasir narratologiya və polifonist roman nəzəriyyələri kontekstində kompleks filoloji təhlilinə həsr olunub. Əsər ümumi süjet, personajlar sistemi və fəlsəfi, tarixi və sosio-mədəni aspektləri özündə birləşdirən konseptual quruluşu ilə XX əsrin sonu və XXI əsrin əvvəllərindəki Azərbaycan reallığını əks etdirən bütöv bir nəsr dövrünün tərkib hissəsi kimi təhlil olunur. Müəllif romanın hekayətində hər bir personajın öz fəlsəfi baxışını qoruyaraq, onların qarşılıqlı münasibətlərini çoxsəsli və zəngin şəkildə təqdim edir.
Roman janr və struktur xüsusiyyətləri baxımından təhlil olunur, belə ki, süjetin əsas mövzü üzrə inkişafı, avtobioqrafik və fəlsəfi zənginliyi, qəhrəmanın daxili refleksiya və sosial fəaliyyət vasitəsilə inkişafı kimi xüsusiyyətlər ön plana çıxır. Bundan əlavə, əsərin xətti və qeyri-xətti narrativ, yaddaş və tarixi xronika elementlərini birləşdirən mürəkkəb bir hekayə sistemi olduğu vurğulanır. Məqalədə tetralogiya janrının bədii təmsil forması kimi rolu araşdırılır və R.Vaqner, C.Qoluorsi və digər yazıçıların tetralogiyaları ilə paralelliklər qurulur.
Nəticə olaraq vurgulanır ki, Məmməd Əliyev nəsri yalnız milli-mənəvi reallığı əks etdirmir, eyni zamanda beynəlxalq ədəbiyyat kontekstinə harmonik şəkildə daxil ola bilmişdir. Həmçinin "Bir uzaq yaşıl ada" əsərinin 1980-ci illərin sonlarından etibarən baş vermiş ictimai-siyasi, sosial-psixoloji və tarixi-mədəni proseslərin parlaq panoramasını yaratdığı qeyd edilir.
**Açar sözlər:** narratologiya və polifonist roman nəzəriyyəsi, konseptual quruluş, daxili refleksiya, ədəbiyyat konteksti

**Məqalə tarixçəsi:** göndərilib – 22.10.2025; qəbul edilib – 31.10.2025

## The artistic-philosophical discourse of the novel "One Distant Green Island" and author's narrative paradigm

**Nizami Mammadov Tagisoy**
Doctor of Philological Sciences, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: nizami.mamedov@mail.ru
ORCİD İD: 0009-0009-9837-4564

**Abstract.** This article presents a comprehensive philological analysis of Mammad Aliyev's novel "One Distant Green Island" within the context of contemporary theories of narratology and the polyphonic novel. The work is examined as part of a larger prose cycle, united by a common plot, character system, and

conceptual structure that encompasses philosophical, historical, and sociocultural aspects of Azerbaijani reality in the late 20th and early 21st centuries. Particular attention is paid to the author-observer's artistic function and the polyphonic interactions of the characters, where each perspective retains its autonomy and philosophical weight.
The novel is analyzed in terms of genre and structural features, such as plot concentricity, autobiographical and philosophical richness, and the development of the character through internal reflection and social action. It is also emphasized that the work represents a complex narrative system, combining elements of linear and nonlinear narrative, memoir, and historical chronicle. The article explores the significance of the tetralogy genre as a unique form of artistic representation, paralleling the tetralogies of R. Wagner, J. Galsworthy, and other authors.
The conclusion emphasizes that Mammad Aliyev's prose not only reflects national spiritual reality but also fits seamlessly into the international literary context. It also notes that the novel "One Distant Green Island" recreates a vivid panorama of socio-political, socio-psychological, and historical-cultural processes that have occurred since the late 1980s.
**Keywords:** narratology and polyphonic novel theory, conceptual structure, internal reflection, literary context

**Article history:** received – 22.10.2025; accepted – 31.10.2025

## Giriş / *Introduction*

Bədii yaradıcılıq insanın ümumi yaradıcılıq fəaliyyətinin tərkib hissəsini təşkil etməklə yanaşı, həm də yeni estetik dəyərlərin yaradılmasını, xüsusən də sənət əsəri yaratma anlamını özündə ehtiva etməkdədir. Bu baxımdan, filologiya elmləri doktoru, professor, son dövrlərdə özünün orijinal nəsr nümunələrini geniş oxucu auditoriyasına təqdim edən Məmməd Əliyevin “Bir uzaq yaşıl ada” (Roman. IV kitab) romanı ilə bağlı məlumat verməyə ehtiyac vardır.

## Əsas hissə / *Main Part*

Məmməd Əliyev son illərə qədər əsasən ədəbi-nəzəri əsərləri ilə milli-mədəni mühitimizdə nəzəriyyə və ədəbiyyatşünaslıq məsələlərini gündəmə gətirən alimlərdən biri olmuşdur. Artıq neçə ildir ki, o, yaradıcılıq ampluasını ciddi şəkildə dəyişib, həm də maraqlı nəsr əsərləri ilə tanınan müəlliflərdəndir. Məmməd müəllim 2021-ci ildə keçən yüzilliyin ortalarında gedən ictimai-siyasi prosesləri və mədəni-mənəvi aşınma və deqradasiyaların, böhran illərinin qneseoloji köklərinə bir ailənin həyatı kontekstində nəzər salıb “Həsrətin o üzü” mövzulu monumental bir roman ortaya qoymuşdur [3]. Elə həmin ildə müəllif digər bir nəsr əsərini – “Karvan köçər, ötər gedər sədası”nı öz pərəstişkarlarına təqdim etmişdir [4]. Məmməd Əliyev əvvəlki romanlarından bir qədər fərqli yöndə istiqamətlənərək, “Həsrətin o üzü”nün kompozisiya-struktur xəttini ali məktəbdə təhsil alan bir gəncin taleyinə həsr edib. Bu gənc təhsilini başa vurduqdan sonra bir müddət işsiz qalıb, aylarla küçələrdə boş-boşuna gəzməyə məcbur olub, yataqxanadan çıxarılsa da, xoş və gözlənilməz bir təsadüf nəticəsində heç özü də bilmədən o vaxtkı ali və orta ixtisas təhsili nazirinin qəbuluna düşür və onun yaxından köməkliyi sayəsində məsul bir vəzifəyə təyin olunur. Beləliklə, “Həsrətin o üzü”ndən gələn maraqlı hadisələr inkişaf etdirilərək, oxucunu bu romanın süjet-kompozisiya xəttində və ideya məzmununda yer almış özünəxas gedişlərə cəlb edir.

Adlarını qeyd etdiyimiz iki əsərdən az sonra müəllifin başqa bir maraqlı “Mavi-yaşıl gözlərin işığı” adlı romanı həyata vəsiqə alır [5]. Bu monumental nəsr nümunəsi də, əslində, əvvəlki romanların ideya-məzmun xətti, xeyli dərəcədə arxitektonika, digər çeşidli xüsusiyyət və elementlərini özündə əks etdirmiş örnək kimi nəzərdən keçirilməlidir. Hadisələrə qısa nəzər

salarkən deyə bilərik ki, romanda yalnız 80-ci illərin ictimai-siyasi prosesləri əks olunmur, burada əsərin episentrində dayanan baş qəhrəman Murad və onunla bu və ya digər süjet xəttinin hadisə və gedişlərini özündə əks etdirən və sənətkarlıq baxımından kamil işlənmiş bədii personajlar – Adriana Kamuşadze, Nadejda Kopıl, akademik Elizbar Cavelidze, professor Qavaxariya, professor Umrali Normatov, Sərxan və digərlərinin timsalında cəmiyyətdə dostluq və səmimiyyət hisslərini tərənnüm edənləri görmək mümkündür. Qeyd etmək lazımdır ki, biz adlarını qeyd etdiyimiz hər üç romanla tanış olduğumuzdan, onların hər birinin dil axıcılığı, semantik ifadələrin dürüstlüyü, üslub əlvanlığı və rəngarəngliyi haqqında daha ətraflı bəhs etmək imkanı yaranır. Əlbəttə, onlardan hər biri ilə bağlı nəzəri-estetik mövqe sərgiləmək nəinki mümkündür, həm də zəruridir.

"Bir uzaq yaşıl ada" romanında müəllifin bədii reallığın interpretasiyasına istiqamət götürməklə, reallığın bədii obrazların köməyi ilə transformasiyasına çalışdığını görürük. Əslində, romanda Azərbaycan gerçəkliyinin fərqli bədii mənzərəsi, fərdi ideyası və özünəməxsus "dünya modeli"nin dominantlığı əks olunur. Yəni əsərlə tanışlıq zamanı mövzunun açılmasında müəllif tendensiyasının aparıcılığını və əsərin ideyasının həlli yollarının dərindən qurulduğunu görürük. Eyni zamanda burada yazıçının bəhs etdiyi problemlə bağlı emosional dəyər münasibətlərinin də geniş şəkildə şahidi olmaq mümkündür.

Yazıçı, ümumiyyətlə, sənətkar bədii nümunə yaratmağı planlaşdırarkən əsərin digər elementlərini müəyyənləşdirməklə yanaşı, həm də ilk növbədə, bədii ideyanın kamilliyi üzərində daha ətraflı düşünməni ön plana çəkir. Çünki bədii ideyanın kamilliyi əsərin bütün arxitektonik, kompozisiya, məzmun keyfiyyətləri və s. mükəmməl şəkildə ortaya gəlməsinə şərait yaradır.

İlk növbədə qeyd etməliyik ki, ideya müəllifin ortaya qoyduğu başlıca fikrin ifadə edilmə imkanıdır. İdeya ədəbi əsərin bədii məzmununun ümumiləşmiş formasıdır. İdeyasız yazıçının əsəri ölü kimidir. O, əsərin fəlsəfi-estetik ləngərini, pafosunu məhz ideyanın köməyi ilə yaradır. "Bir uzaq yaşıl ada" romanında Məmməd Əliyev, əslində, XX əsrin 80-ci illərinin sonu, XXI əsrin əvvəllərində gedən ictimai-siyasi, sosial-psixoloji, tarixi-mədəni, mənəvi-əxlaqi durum və proseslərin mənzərəsini ortaya qoyur. Əsər müəllifinin keçmişlə bağlı, müharibə dövrü, yəni İkinci Dünya müharibəsi, ondan sonrakı ərəfə, həyat və ömür haqqında düşüncələri, insan ovqatının rəngarəngliyi, 80-ci illərin sonlarından başlayan siyasi, ideoloji, geopolitik fırtına və qasırğaları və s. haqqında geniş panoramlı təfərrüatların yer alması oxucuları qeyd etdiyimiz dövrün reprezentasiyası müstəvisinə keçirir.

Roman qəhrəman, obraz, surət və personajlar, çeşidli arxitektonika, polifonik təhkiyə aurası və s. baxımından da kifayət qədər zəngindir. Oxucu burada Murad, Nəcibə, Səadət, Nizami, Vidadi, Heybət, Kamran, Tengiz, Adri, Tural, Nadya, Anatoli Pavloviç, Ənvər Nəzərli, Rafiq Babaşoviç, Zinaida, Mirzə, Xəlil Rza Ulutürk, Valeri və b. bu kimi koloritli şəxsiyyət və obrazlarla tanış olur.

Bütün obrazlarla yanaşı, oxucunun gözü qarşısında Murad daha çox hadisələrin burulğanında dayanmaqdadır. O, həyata baxışı, düşüncələri, pozitiv münasibətləri, yaranmış vəziyyəti diqqətlə təhlil edən əsl azərbaycanlı oğlu kimi müxtəlif situasiyalardan uğurla çıxmağı bacaran, tədbirli təkliflər irəli sürən zəngin və əhatəli düşüncə daşıyıcısıdır. Bununla belə, müəllif romanın lap ilk səhifələrində onunla bağlı bir vacib detalı da qeyd etməyi unutmamışdı: "Murad sevgi bağından yalnız acı meyvələr dərmişdi" [2, s.14]. Adriana xəstələnərkən onun beyninin sağ yarımkürəsində qırmızımtıl rəngə çalan ləkə aşkar edilmişdi. Odur ki, Moskvadakı Onkoloji Mərkəzdə onun əməliyyat edilməsi üçün 1,5-2 mln. dollar vəsaitin zəruri olduğunu qeyd etmişdi [2, s.35-48]. Murad gənc professor idi...

Əslində, müəllifin aparıcı konseptual bədii ideyasında əsərin baş qəhrəmanı Muradın timsalında Azərbaycanda keçən əsrin 50-ci illərindən tutmuş, ölkənin tarixinə və qəhrəmanın taleyinə işıq tutmaq vacib idi. Müəllif bu baxımdan əsərdə qarşıya qoyduğu məqsədinə nail ola bilmişdir. Qeyd edək ki, bəzi nəzəriyyəçilər ideyanı aksiom yox, teorem kimi nəzərdən keçirirlər, çünki doğrudan da yazıçı öz başlıca ideyasını, fikrini kağız üzərində realizə edərkən, öz teoremini

formalaşdırmağı mühüm hesab edir. Elə Məmməd Əliyev də romanı qələmə almaqla öz duyğularını ifadə etməyə çalışmışdır. Buna görə də nəinki "Bir uzaq yaşıl ada" romanında, həm də bundan əvvəlki əsərlərində də o, öz qəhrəmanını müxtəlif tipli ekstremal situasiyalara salır və göstərir ki, əsərdə ortaya qoyduğu konseptual bədii ideya onun özü və əsəri ilə birlikdə yaşayacaqdır. Məsələn, Azərbaycan ədəbiyyatında M.F.Axundzadə, C.Məmmədquluzadə, S.Vurğun, Anar, Elçin, S.Səxavət; rus ədəbiyyatında A.Qriboyedov, N.Qoqol, A.Puşkin, M.Lermontov, L.Tolstoy, F.Dostoyevski, M.Qorki, M.Şoloxov, L.Leonov; Avropa ədəbiyyatında O.Balzak, E.Zolya, Q.Q.Markes və başqalarının mükəmməl bədii obrazlarının üstündən nə qədər fırtınalar, təlatümlər keçsə də, bu obrazlar öz müəlliflərini bu gün də yaşatmaqdadırlar. Biz yuxarıda sıraladığımız adları diqqət mərkəzinə çəkərkən nə haqqında bəhs etdiyimiz müəllifi, nə də onların obrazlarını müqayisə etməkdən kənarıq, lakin hər halda Məmməd Əliyevin romanında kristal, dözümlü və ayıq təfəkkürə söykənən azərbaycanlı professorun bədiilik sənətinin xüsusiyyətlərinə uyğun olaraq yaradılmış obrazının keyfiyyətlərini qeyd etməyi özümüzə borc bilirik. Muradın həyat yolu, onun dünyabaxışı, xarakteri əsər müəllifinin bir çox cəhətləri ilə üst-üstə düşür.

Məmməd Əliyevin "Bir uzaq yaşıl ada" romanının süjet və fabulası da ədəbi-nəzəri baxımdan diqqəti cəlb edir. Belə ki, burada əksini tapmış və oxucu üçün müəyyən qaydalara söykənən bir sıra hadisələr, o cümlədən əsərdə zəncirvari şəkildə təcəssümünü tapmış nə varsa, hamısı – personajların həyatı, fəaliyyəti, birinin digərləri ilə əlaqələri, müəyyən məkan-zaman ölçülərini əhatə etməklə, əvəzlənə-əvəzlənə bədii mətn qanunauyğunluqlarına görə hərəkətdə olur. Modernist, postmodernist, strukturalist və avanqard səpkili müəlliflərdən fərqli olaraq, Məmməd Əliyev burada digərləri kimi, tarixi zərurət, mifoloji örnəklər, əfsanələr, pritçalar və s., yaxud ötən yüzilliklər ədəbiyyatının hansısa elementlərindən yararlanmaqla deyil, özünün görüb, yaşayıb, şahid olduğu tarixi ictimai mərhələnin gözümüz qarşısında bədii mənzərəsini çeşidli orijinal obrazların iç dünyasına söykənərək əsərin episentrinə gətirməklə oxucuya təqdim edir. Daha doğrusu, müəllif özünə yaxın olan reallığın bədii mənzərəsini yaratmaq vəzifəsini təmin edir. Demək olar ki, burada yazıçı real hadisələri irreal baxışların güdazına vermir. Lakin bunu da qeyd etməliyik ki, Məmməd Əliyev bəzi hallarda qəhrəmanın və personajların daxili hiss və duyğularını, fikir və düşüncələrini, təbiət təsvirlərini və ətraf aləmi də xarakterlərin amal və istəklərinə müvafiq olaraq yaradır və onlarla uzlaşdırır.

"Bir uzaq yaşıl ada" romanında yer almış fabula elementlərində isə bir-biri ilə qarşılıqlı şəkildə bağlı olan motivlər təsdiqləyici səbəb-məqsəd əlaqələri ilə birləşən hadisələr cərgəsində qruplaşdırılır. Əsərin fabulası təsvirin tematik-faktik predmeti olaraq romanın aparıcı hərəkətinin planı olub, motivlərə verilən rolun və personajların yerinin uğurlu göstəricisi kimi çıxış edir.

Romanda yaddaqalan maraqlı bədii ifadə üsulları və detallar yetərincədir. Məsələn, SSRİ Xalq yazıçısı Boris Oleynikin (o, SSRİ Ali Soveti Millətlər Palatasının sədri idi) Qorbaçovu "князь тьмы" ("zülmət sultanı") [2, s.65] adlandırması, Muradın isə Salyan kazarmalarının yanından piyada keçib gedərkən ölümlə üz-üzə dayanması, onun Muradın rus polkovnikinə "Camaatı qırdırmayın" kimi kinayəli replikası [2, s.68], Yazovun qoşunları Bakıya yeritməsi [2, s.69], XI Qızıl ordu meydanında top atəşlərinin ard-arasının [2, s.69] kəsilməməsi, xalqın barrikadalar qurması [2, s.76], meyitlərin daşınması, nümayişçilər tərəfindən zirehli maşınların mühasirəyə alınması, Elmira Qafarovanın bu hadisələri dövləti cinayət kimi səciyyələndirib dünyaya bəyan etməsi, erməni Slavikin Bakıda yaxşı vəzifədə çalışmasına baxmayaraq, hadisələr başlayınca Bakıdan qaçıb qatillərlə bərabər [2, s.80] azərbaycanlılara qənim kəsilməsi və s. əsərin birinci hissəsində əks olunmuşdur.

***

Üç hissədən ibarət bu romanın ikinci hissəsində oxucu yenə də Murad obrazı ilə daha sıx qarşılaşır. Burada Quba Müəllimlər İnstitutunun açılması [2, s.109], ona müstəqil status verilməsi

[2, s.137], eyni zamanda müəllif tərəfindən keçmiş hadisələrin retrospeksiyasının yaradılması, Muradın Lenin muzeyi və 26 Bakı komissarları muzeyini dağıtması, Stepan Şaumyanın portretinin və Leninin maketinin dağıdılıb tonqalda yandırılması, 1918-ci il hadisələrində emənilərin Şaumyanın fitnəsi ilə Azərbaycan türklərini soyqırıma məruz qoymaları [2, s.147], bu qatı daşnak dığasının göstərişi ilə Bakı, Salyan, Şamaxı, Quba və ölkəmizin digər ərazilərində törətdikləri vəhşiliklər, Şaumyanın Azərbaycanı tərk edib, Türkmənistan ərazisindən gizli yollarla Hindistana qaçırılması, övladları Levon və Georginin onun qəbrinin üstünə getmələri [2, s.148] və s. və i.a. kimi hadisələrə oxucu diqqətini yönəltməsi, Məmməd Əliyevin təhlilini apardığımız əsərinin önəmli səhifələri kimi dəyərləndirilməlidir.

Roman müəllifinin geniş fərdi yaradıcılıq stixiyası və priyomu kimi istifadə etdiyi retrospeksiyalar əsərin dilinin ifadə formasının gücləndirici elementi olaraq əvvəlki faktual-məzmun informasiyasının oxucuya daha geniş təfsilatı ilə çatdırılmasında aparıcı rol oynayır. Müəllif burada keçmişi təftiş etmək məqsədini güdməyib, bununla təhkiyənin deyim narrativinin daha da maraqla izlənilməsinə diqqət çəkməyi vacib hesab etmişdir. Eyni zamanda müəllifin keçmişin ürək ağrıdan hadisələrinə diqqət yönəltməsi heç də onun öz fərdi maraqlarına xidmət etməsi ilə bağlı deyildir. Bu, indidən keçmişə gedib, keçmişdən indiyə qayıtmada baş vermiş hadisə və proseslərin, bir tərəfdən faciəviliyinə, digər tərəfdən, taleyüklü olduğuna hesablanmışdır. Mərkəz rəhbərliyinin Azərbaycana laqeyd münasibətini geniş auditoriya qarşısında ön plana çıxarması, milli münasibətlərin vətənimizdə son həddə çatdırılıb alovlandırılması, Qarabağ uğrunda başlayan iğtişaşların Ermənistanı, Gürcüstanı, Moldovanı, Estoniyanı və Litvanı bürüməsi, M.S.Qorbaçov dövründə ölkədə hərc-mərcliyin baş alıb getməsi, Qərbi Azərbaycandan gələn soydaşlarımızın didərginlik həyatı yaşamaları [2, s.197], Xocalı genosidi, Beynəlxalq təşkilat, birlik və ölkələrin bu vandallığa və düşmənçiliyə göz yumması və s. kimi hiss və duyğularımıza narahatlıq verən məqamların hamısı Məmməd Əliyevin “Bir uzaq yaşıl ada” romanının ikinci hissəsini təşkil etmiş hadisələrin çeşidli mənzərələrini yaratmaqdadır.

Məmməd Əliyevin “Bir uzaq yaşıl ada” romanı, əslində, Azərbaycanımızın tarixi taleyində əlahiddə dövr olan həmin illərin ağrılı panoramını təqdim etməklə qaçqınlıq, köçkünlük, ölkədə hərc-mərclik, kənd təsərrüfatı obyektləri, torpaq və əkin sahələri, mal-qaranın yiyəsiz qalması, özəlləşdirmə adı altında talan edilməsi [3, s.227], Vətənin çörəklə imtahana çəkilməsi, Rusiya ilə qırılmış müxtəlif tipli əlaqələrin insanların həyatına təlatümlər gətirməsi, Dərbəndlə əlaqələrin yenidən bərpa edilməsində Səid Qurbanovun rolu, Muradın istifadə edib institut əməkdaşlarına 250 çörəyi birdən paylaması və s. başqa bu kimi hadisələrin mahiyyətinin açılması Murada hamının “milli oğlan” kimi dəyər verməsi ilə nəticələnir [3, s.270]. Səid Qurbanovun Azərbaycana etdiyi köməyə görə onun 70 illiyinin Prezident Administrasiyasının yüksək rütbəli nümayəndələrinin iştirakı ilə Qubada keçirilməsi, Heydər Əliyevin onunla yaxın münasibətlərdə olması, Muradın Meydan hərəkatına yaxından dəstək verməsi, Əlikram Hümbətovun Talış Muğan Respublikası yaratmaq cəhdləri və s. kimi məsələlər obyektiv tarixi gerçəkliklər fonunda incələnmişdir. Bu hadisələrin ölkə və xalq üçün uyğun məcraya düşməsində xalqın inanıb etibar etdiyi Heydər Əliyevin hakimiyyətə gətirilməsi, 8 iyun 1993-cü ildə Bakıya dəvət olunması və bir həftə sonra Milli Məclisin sədri seçilməsi, Lidiya Rəsulovanın hay-küylü “millətçiliyi”, Muradla Lidiya Rəsulova arasında söhbət zamanı onun Muradı özbaşınalıqda suçlaması və rüşvətlə bağlı söz-söhbətə çəkməsi, onun dediklərinin Murad tərəfindən böhtan xarakterli olduğunu xatırlatması [3, s.242], onunla prokuror və b. arasındakı mükalimələr romanın infrastrukturunda oturan məzmun çalarları milli və yerli koloriti yüksəltmək baxımından əhəmiyyətlidir [3, s.262].

Əsərdə Muradın əvvəlki Azərbaycan hökumətində təmsil olunmuş nazirlərlə münasibətlərinin məhz Muradın baxış kontekstində yer alması və digər çoxsaylı məqamlar bu romanın maraqlı nəsr nümunəsi kimi nəzərdən keçirilməsi ilə bağlı dolğun təsəvvürlər yaratmaqdadır.

Qeyd etdiyimiz digər məsələlərlə yanaşı, Məmməd Əliyevin "Bir uzaq yaşıl ada" romanında həm də müasir nəsrdə "gənclər şüuru" adlı fenomenal üslubun özəl tərəflərinə diqqət yetirilir. Müəllif əsərin özəl keyfiyyətlərini işıqlandırmaq üçün yeni bir ədəbi materialı sənət və gerçəklik dialektikası əsasında təqdim edir. Daha doğrusu, burada gənclik şüurunun sosiomədəni tərəfinin və üslub əlaqələrinin XX əsrin son onilliklərini və XXI əsrin əvvəllərində ədəbi nəslin üslub tendensiyasına söykənərək qurur və iki müxtəlif sosial-psixoloji mərhələdə gedən gənclər şüurunun əsasında təhlil etməyə səy göstərir. Məsələ burasındadır ki, M.Əliyev gənclik şüurunun psixoloji modelinin mahiyyətinin formalaşma akkumulyasiyası vasitələri ilə (şüur, yeniyetməlik yaşı, gənclik) yaş psixologiyasının predmetini müəyyənləşdirən anlayış aparatı və kateqorial modelini nəzərə almaqla, onun inkişaf məntiqini açıb ortaya qoyur və baş qəhrəmanın xarakter konsepsiyasını həyatın sosiologiyası üzərində sosiomədəni modelini yaradır. Bundan başqa, sosiomədəni modelin fəlsəfi tərəfini isə ekzistensial fenomen təşkil edir ki, ədəbi, tarixi, psixoloji və sosioloji məsələləri daha dərindən araşdırmağa qabil olan yalnız antropoloji fəlsəfənin həll edə biləcəyi nümunə ola bilir. M.Əliyev özündən əvvəlki nasirlərin bədii-fəlsəfi təcrübəsindən yetərincə yararlanmaq üçün müasir mərhələdə insanların daxili hiss və həyəcanlarının köməyi ilə onlar "xüsusi varlıq – ekzistensiya azadlıq – şüur" elementləri kontekstində yanaşmasında təxəyyül aktının köməyi ilə "şüur aktını" kəşf etməyə (Jan Pol Sartr) və onun vasitəsi ilə gənclik şüurunun müəllif reallığını canlandırır. Burada isə Murad bəzi hallarda özünün metafizik fazasında qərar tutmaqla, həm də spontan olaraq metafizik qiyamçıya çevrilir və onun dünyadüzümü baxışında öz taleyi, xalqı, ölkəsi, vətəni ilə bağlı kədərli düşüncələrə dalması maraqlı şəkildə reprezentasiya edilir. Muradın roman boyu təfəkküründə gedən proseslərə nəzər saldıqda, onun iç dünyasında metafizik bir qiyama, bunta, romantikliyə, nihilizmə, dekadansa, hətta neoromantik düşüncəyə yuvarlandığı ilə bağlı da fikirlər söyləmək mümkün olur. Eyni zamanda qeyd edək ki, burada Məmməd Əliyev rus, Şərq, Qərb və Amerika nəzəri fikrində olduğu kimi, nə simvolik süjetlərə, nə A.Veselovskinin "Süjetlərin poetikası"na söykənir, nə K.Q.Yunqun kollektiv şüursuzluq (şüuraltı) yanaşmasına, nə Q.Velflinin qiyamçı individualistinə, nə də digərlərinin nəzəri baxışlarından irəli gələn yanaşmalara uymur. Əsərin bütün təhkiyə kəsimlərində biz müəllifin fərdi polifoniyasını hiss edir, eşidir, duyur, görürük.

***

Biz Məmməd Əliyevin romanının polifonikliyi məsələsinə ötəri də olsa, yuxarıda toxunmuşduq. Burada sadəcə olaraq polifoniya ilə bağlı əlavə etmək istəyirik ki, bu termin musiqinin çoxsəsli xüsusiyyətlərini özündə ehtiva etməklə, həm də ayrı-ayrı səsləri hər hansı sənət əsərində kompozisiya – texniki və məntiqi münasibətlər baxımından bərabərhüquqluluq fakturası kontekstində nəzərdə tutur. Lakin biz buna nəsr janrı olan roman kontekstində fərqli yanaşırıq. Onu da bildirək ki, polifonik roman termini ədəbi-estetik və fəlsəfi-nəzəri dövriyyəyə F.M.Dostoyevskinin əsərlərinin dərinləşdirilmiş təhlillərini aparmış Mixail Baxtin tərəfindən gətirilmişdir. Və son dövrlərdə bu və ya digər nəsr əsərlərində mətn polifoniyasını gündəmə gətirən analitik yazıların sayının artması da problemə aktuallaşan münasibətlə bağlıdır. Odur ki, bu müstəvidə M.Əliyevin romanının polifonikliyindən danışılması da, fikrimizcə, yerinə düşən məqam kimi dəyərləndirilə bilər.

M.Baxtinin polifonik roman nəzəriyyəsindəki yanaşmalardan çıxış etsək, birmənalı şəkildə təsdiqləyə bilərik ki, M.Əliyev çağdaş modern və postmodern yazı üslubuna üstünlük verənlərdən fərqli olaraq, nəinki incələnməsini həyata keçirdiyimiz "Bir uzaq yaşıl ada", həm də ondan əvvəlkilərdə də öz personajlarının hamısının səsini müstəqil şəkildə təqdim etməyə müvəffəq olmuşdur. Əgər belə demək mümkünsə, bu əsərlərdə "melodiya" və "akkompanament" olmadığı kimi heç hər hansı "harmoniya"da yoxdur. Bununla belə, bu romanların mətnində M.Əliyev "özgə şüuru"nu dərindən dəyərləndirmənin köməyi ilə hər bir personajın öz nəzər nöqtəsinə üstünlük

verməsi nəticəsində irəliləməsinə nail olmuşdur. Mətn müəllifi bu personajların dil və mahiyyət yaruslarına yaxınlaşaraq qəhrəman və surətlərin hal və xarakterik tərəflərini uğurla göstərə bilir. Həm bütün roman boyu, həm də epizodik məqamlarda iştirakçı olan qəhrəman və personajlar özlərinin, belə demək mümkünsə, ideoloji baxımdan ikiləşmə xüsusiyyətlərini əks etdirməklə Muradla yanaşı, milli azadlıq və müstəqillik carçıları M.Cəfər, B.Vahabzadə, T.İsmayılov, X.R.Ulutürk, D.Əliyeva və b. da əsərin kiçik bir mətn kəsimində özlərinin görünüb, ortaya çıxması ilə bağlı əhəmiyyətli rol daşıyıcısı olduqlarını təsdiqləmiş olurlar. M.Əliyev bu romanda qəhrəmanların hiss və duyğuları ilə bağlı müəllif səsini ön plana çıxarmağı hədəfləmir, lakin bu qəhrəmanlar öz davranış və hərəkətləri ilə oxucuda xeyirxah, yaxud bədxah assosiasiyalar yaradırlar. Bəs Məmməd Əliyev romanın polifonik keyfiyyətlər əldə etməsi üçün hansı bədii-estetik priyom və yanaşmalardan istifadə edir?! Fikrimizcə, müəllif, hər şeydən öncə, romanda nəinki müxtəlif elementləri dialoq formasında təşkil edir, eyni zamanda özü də bu dialoqun iştirakçısına çevrilir. Bizdə belə bir hiss yaranır ki, romanın baş, yaxud daha prioritetli mövqedə duran qəhrəmanları müəllif tərəfindən nəzarətdə saxlanılmır, lakin buna baxmayaraq, romandakı hadisələri mətnboyu müşahidə etdikcə, onu da yəqinləşdiririk ki, onlar öz fərdi mövqelərini ifadə etmək imkanından da kənarda qalmırlar. Məsələn, Azərreklam İdarə Birliyinin Baş direktoru Yefim İvanoviçin davranışı, dəyirman Nadirlə bağlı qanunsuz həbs, Azadlıq meydanında ölkəni lərzə gətirən çıxışların məram və məqsədi götür-qoylu müəllif müşahidəsi ilə işıqlandırıldığı məqamlar, Kamran, Tengiz, Adri, Tural və Muradın siyasi-ideoloji xarakterli çıxışları, Xəlil Rza Ulutürkün Azadlıq meydanında “Afrikanın səsi” şeirini mikrofonla səsləndirdiyi nitqi, “Koroğlu” uvertürası, “Cəngi” sədaları, Y.Zurufçunun “Ayrılıq” mahnısının gur səslə nümayişçiləri mübarizəyə səsləməsi, Heydər Əliyevin hakimiyyətdən xaincəsinə uzaqlaşdırılması və s. məqamlar oxucunun gözü qarşısında polifonik roman janrının çeşidli mənzərəsini təqdim etməkdədir. Eyni zamanda əsərin bəzi hissələrində qəhrəmanın səsi və şüuru müəllif tərəfindən idarə olunma assosiasiyalarını yaradır. Nəticədə “Bir uzaq yaşıl ada” romanı çoxsəsli dialoqlarla zəngin və qeyri-adi mənəvi bir aləm yaradır. M.Əliyevin təhlil etdiyimiz romanının digər polifonik xüsusiyyətlərindən bəhs etdikdə əsərdəki sinxronluğa da nəzər yetirmək məqbul hesab edilə bilər. Kommentariyalı oxu zamanı və əsərə tənqidçi gözü ilə yanaşdıqda yəqin etdik ki, bu əsərin süjet xətti və qəhrəmanların davranışı eyni bir zaman kəsiyində sinxron olaraq nümayiş etdirilir. Qeyd etdiklərimizlə bağlı bir məqamdan da yan keçmək olmaz ki, M.Əliyevin “Bir uzaq yaşıl ada” romanının başqa bir polifoniyası qəhrəmanlar arasında gedən dialoqla bağlıdır. Qeyd edək ki, “Bir uzaq yaşıl ada”da biz nəinki qəhrəmanın xüsusi daxili monoloquna, həm də onun digər qəhrəmanlarla olan dialoquna diqqət yetirməliyik. Əsərin üçüncü hissəsindəki Lidiya Rəsulova ilə bağlı təsvirlər Muradla Lidiya arasındakı söz atışmaları, yaxud klassik poetik terminologiyanın dili ilə desək, “hərbə-zorba” da müəllifin uğurlu dialoqqurma ustası olduğunu sübut edir:

“Murad nə üçün çağırıldığını bilmirdi. Bircə onu hiss etmişdi ki, bu adamdan yaxşı bir iş gözləmək çətindir.

Köməkçi otaqdan gec çıxdı, çıxanda qapını açıq qoyub, ona içəri keçməyi təklif etdi...

...Nazirin arıq, boz və çopur sifəti onun diqqətini çəkdi. Murad salam versə də, o, salamı almadı. “Əyləşin” deyib, stul göstərdi.

Murad əyləşən kimi, o, rus ləhcəsi ilə dilimizdə danışmağa başladı:

- Sizə kim icazə verib ki, türklərə orada yer verirsiniz? Yəni bizim özümüzə bina lazım deyil? Niyə özbaşınalıq edirsiz, kim sizə o səlahiyyətləri verib? Siz bilirsiniz ki, bunların arxasında nə durur?! Pul və rüşvət!.. Elə bunlara görə də cavab verməli olacaqsınız?..

...Muradın rəngi tutuldu. Danışmaq, cavab vermək istəsə də, nazir imkan vermədi, onu ittiham etdi.

Murad dözə bilməyib onun sözünü kəsdi. Nazir bunu gözləmirdi, cavan oğlan ayağa qalxıb uca səslə dilləndi:

- Lidiya xanım, bunların hamısı böhtandır, kim verib o pulu, o rüşvəti?! Yalandır! [2, s.242]

Yeri gəlmişkən bildirək ki, bütün roman boyu Muradın nəinki Lidiya Rəsulova ilə olan mükalimələri, həm də digərləri ilə olanları eyni tonda deyildir. Bu da, fikrimizcə, roman müəllifi tərəfindən baş qəhrəmanın daxili aləminin ən incə məqamlarını səciyyələndirən tipik xüsusiyyətlərdəndir. O, belə demək mümkünsə, daim ziddiyyətlər burulğanındadır. Müəllif əsərdə bu tipli və formalı dialoqlara bilərəkdən yer verməklə personajlarının mənəvi aləmi və qəhrəmanının özünün içində gedən şüur elementlərini nümayiş etdirməyi hədəfləyir [14].

Məmməd Əliyevin "Bir uzaq yaşıl ada" romanını diqqətlə nəzərdən keçirdikdə görürük ki, M.Baxtin nəzəriyyəsi və fərdi baxış bucağımıza söykənərək polifoniyanın son dərəcə mürəkkəb bədii priyom olub, əsərin qəhrəmanlarının müxtəlif müstəvilərdə harmonik mövcudluğunu təmin etmək üçün çeşidli priyom və kompozisiya-struktur prinsipindən yararlanır ki, bu prinsiplər vasitəsilə müəllif və qəhrəmanların mənəvi dünyasının dərki və həyat baxışları çeşidli yönlərdən xarakterizə oluna bilər.

Azərbaycan ədəbi-nəzəri fikri və estetik yanaşmalarında gərəyincə diqqət yetirilməmiş polifonik roman nəzəriyyəsi problemlərinə milli ədəbiyyatşünaslığımızın diqqət yetirməsinə bu gün daha böyük ehtiyac duyulmaqdadır. Ədəbiyyatşünaslığımızdakı bu boşluqları doldurmaq üçün M.Baxtinin nəzəri-metodoloji yanaşmaları [1], Mariya Berdnikovanın "Bədii məkanın janr spesifikası (F.M.Dostoyevskinin polifonik romanı)" [7], V.Rudnevın "Polifonik roman" // Polifonik cisim. XX əsr mədəniyyətində və şizofreniya [11], V.Pelevinin "Mafusaila Lampası, yaxud çekistlərlə masonların sonuncu döyüşü: böyük polifonik narrativ" [10], N.Tamarçenkonun "Monoloji roman" // Poetika. Aktual termin və anlayışlar lüğəti" [12] və s. bu kimi əsərlərdə yer almış anlayış və terminoloji izahlardan yararlanmaq Azərbaycan nasirlərinin əsərlərinin təhlilində uğurla istifadə edilə bilər.

***

Biz Məmməd Əliyevin "Bir uzaq yaşıl ada" romanının çeşidli tərəflərindən bəhs edərkən "narrativ" istilahından da istifadə etməyi zəruri hesab edirik. Oxucular və tənqidçilər üçün kifayət qədər aydın olması məqsədilə bədii ədəbiyyatda belə terminoloji ifadələrdən tez-tez ona görə istifadə etməyə meyilli oluruq ki, "narrativ" oxucu, yaxud dinləyici bir-biri ilə çoxsaylı qarşılıqlı əlaqədə olan hadisələrdəki söz və fikirlərin ardıcıllığı, yaxud obrazların köməyi ilə müstəqil yaradılan təhkiyəni nəzərdə tutur ki, bu baxımdan "təhkiyə" ilə "hekayət" ifadələrinin əsasən üst-üstə düşdüyünü nəzərə çarpdırır. Romandakı hadisə və obrazlar, onlar arasında mövcud olan qarışıqlıq yaradan situasiyalar sona qədər aydın olmadıqda, bunların nədən baş verməsi ilə bağlı fikirlər yaranır. Məsələn, romanda yer almış Muradla Lidiya Rəsulova arasında tarıma çəkilmiş münasibət və söz atışmalarının səbəblərini biz Lidiya Rəsulovanın fərdi həyatı baxışları, türklərə münasibəti fonunda daha aydın şəkildə təyin edə bilirik. Onu da əlavə edək ki, "narrativ" heç də yalnız ədəbiyyatşünaslıqda yox, həm də psixologiya, tarix, politologiya, sosiologiya və digər elm sferalarında da tətbiq edilməkdədir. Ədəbiyyat və ədəbiyyatşünaslıqda narrativdən ona görə istifadə edilir ki, bu, oxucu, yaxud tənqidçi auditoriyasını daha çox maraqlandıra bilir.

Məmməd Əliyevin "Bir uzaq yaşlı ada" romanının episentrində Muradla digər personajlar, epizodik obrazlar arasında müəllif maraqlı təhkiyə nüvəsi yarada bilir. Bu isə qəhrəman üçün başlıca problem (avtomatik olaraq insanla yaranan emosional, yaxud davranış reaksiyası, yaxud emosional partlayış, yaxud impulsiv hərəkət və s.) trigger olaraq konfliktətrafı süjetin əksər tərəflərinə yönəlməklə diqqət mərkəzinə düşür. Konflikt həllə doğru gedərkən oxucular üçün gözlənilməyən şəkildə məsələnin həlli tapılır. Məsələn, 1990-ci illərin əvvəllərində Azərbaycan çörəklə imtahana çəkildiyi dövrdə, Rusiya ilə əksər əlaqələrimizin tarımlaşdığı bir ərəfədə Dərbəndlə əlaqələrin bərpasına Səid Qurbanovun köməyi sayəsində Muradın bundan istifadə edib, Azərbaycanda çörəyə olan ehtiyacın ödənilməsi ilə bağlı şəxsi münasibətlərin ön plana çəkilməsi,

Qurbanovun Meydan hərəkatına dəstək verməsi oxucuda müsbət, ümid emosiyalarının yüksəldilməsinə inamı artırmaq məqsədi ilə əsərə daxil edilmişdir. Məmməd Əliyevin romanında narrativin bir neçə növü özünü büruzə verməkdədir. Məsələn, əgər əsərin bir çox yerlərində hadisələr xronoloji ardıcıllıqla inkişaf edirsə, romanın elə hissələri vardır ki, orada tarixin özünün belə xronoloji ardıcıllığı pozulur. Belə hallarda M.Əliyev geriyə xronologiyanın köməyi priyomundan istifadə etməklə (məsələn, tarixin sondan başlanması və hansı neqativ proseslərin belə vəziyyətə gətirməsi), yəni qeyri-xətti narrativdən istifadə, qarışıq xronologiyaya yer verilmə, yəni süjetin müxtəlif elementləri qarışdırılaraq qəhrəmanları mühüm süjet elementlərinin xətti təhkiyə strukturu daxilində yada salması, qəhrəmanın süjetdə mühüm məqamları yadına salmasının təhkiyənin xətti inkişafını pozması, müəllifin, yaxud da personajlardan hər hansı birinin müşahidəçi kimi özünü göstərməsi kontekstində baş verir. Belə olduqda əsərdəkilərin hər hansı biri hadisələrdə iştirak etməsə də, baş verən hadisələri kənardan müşahidə edir. Məmməd Əliyevin romanında qeyd etdiyimiz narrativ növlərindən başqa, həm də refleksiv narrativlə rastlaşırıq ki, bu da onun özünün öz tarixi ilə bağlı (baş qəhrəman Muradın dili və vasitəsi ilə) öz tarixini və həyatını çözməsidir. Belə tarixçiliyin mühüm elementi müəllifin baş vermiş hadisələrə özünün nəzər salmasıdır. Bunun ən bariz nümunəsi isə avtobioqrafik əsərlərdir (bəhs etdiyimiz əsərin janr xüsusiyyəti də avtobioqrafizmlə bağlıdır). “Bir uzaq yaşıl ada” romanında biz digər tarixin tarix zəminində inkişafı, yaxud qurulmuş (düzülmüş, sıralanmış) narrativin də adını çəkə bilərik ki, burada tarixi personaj özünün xüsusi nəzərdən keçirdiklərini, əsasən, əsərin daxilində nəql edir. Lakin bu zaman qurulmuş tarix əsas təhkiyəni kənara qoymaqla, süjetdən kənarlaşmalara yer vermir. M.Əliyevin romanında bəzən ortaya çıxan narrativdən də danışmaq olar ki, bu tipli narrativ də digər narrativdən qırılmaqla, əsas süjet xəttində yer almır.

Məmməd Əliyevin “Bir uzaq yaşıl ada” əsərinin struktur kompozisiya planında fərdi təkrarolunmaz baxışı aşağıdakı məqamlarda özünü daha yaxşı ifadə edir. Burada ilk olaraq retardasiyadan (ləngimələrdən) istifadə göz önünə gəlir ki, belə priyom təhkiyəni lirik ricətlərin, qəhrəmanın fəlsəfi düşüncələrində özünü büruzə verdiyi, retrospektivlik, Muradın, Tengizin və digərlərinin fəaliyyət və hərəkətləri ilə bağlı məqamlarda ortaya çıxır. Onlardan əsasən qeyri-xətti narrativlərdə istifadə olunur. Eyni zamanda biz romanda futurospektivadan (gələcəyə baxışdan) istifadə, introspeksiyadan – qəhrəmanın özünün öz davranış və hərəkətləri üzərində düşüncələri, personajın öz diqqətini əsasən özünün fiziki, emosional və mental vəziyyəti üzərində qurması hallarında (məsələn, hamının Muradı “milli oğlan” kimi nəzərdən keçirməsi) kimi məqamlarda daha aydın görə bilirik.

Yeri gəlmişkən, dediklərimizə onu da əlavə edək ki, termin “narrativ” (lat. narrare – danışmaq, təhkiyə etmək) – özünün hər hansı tarixi qeyri-xüsusi nitqi ilə ərz etmək mənasına gəlir ki, ədəbiyyatşünaslıq və linqvistikaya bu termin tarixşünaslıqdan “narrativ nəzəriyyə” konsepsiyasının köməyi ilə A.Toynbi tərəfindən gətirilmişdir [6]. Başqa sözlə desək, “narrativ” hər hansı məsələni dərindən bilən mənasını çevrələməkdədir. Beləliklə, insan danışarkən, yaxud yatarkən hadisələrin ardıcıllığını yaradıb, ətraf aləmi interpretasiya etməklə özünü də tanıya bilir. Narrativ həm də “narratologiya” terminini reallaşdırır ki, burada hekayətlə bağlı elmi mülahizələr ortaya çıxıb xeyli narrativlərin ümumi strukturunu kəşf etməyə imkan yaradır. U.R.Fişer, M.Kreysfort, rus formalist nəzəriyyəçiləri V.Propp, B.Eyxenbum, V.Şklovski, dialoji narrativ nəzəriyyəçisi M.Baxtin, yeni tənqid nəzəriyyəçisi R.P.Blekmer, psixonalitik nəzəriyyə tərəfdarı K.Berk, strukturalist semiotik nəzəriyyə qurucuları (R.Bart, X.Uayt), oxucu qavrayışı nəzəriyyəsi tərəfdarı (V.Ayzer) və digərləri belə bir fikir irəli sürürdülər ki, XX əsrdə daha çeşidli və çoxsaylı narrotoloji nəzəriyyələr meydana gəlmişdir [13]. Bütün bunlarla bağlı ona görə bir qədər müfəssəl bəhs edirik ki, Azərbaycan ədəbi-nəzəri fikrində özünə hələ də vətəndaşlıq hüququ qazanmamış belə nəzəri baxışa əsaslanaraq, nəinki yuxarıda qeyd etdiyimiz sahələrdə, həm də ədəbiyyatşünaslıqda narratologiyanın imkanlarından yararlanıb monumental nəsr nümunələrinin çeşidli yanaşmalardan

istifadə edib problemin öyrənilməsində izah və təfsirlərinin aparılmasına nail olmaqla belə yanaşmanın səmərəliliyini vurğulayaq. Eyni zamanda bu barədə bəhs edərkən bizim tədqiqatın məqsədi heç də yalnız narrativin mədəniyyətin universal xarakteristikalı olduğunu sübut etməkdən ibarət deyil. Lakin M.Əliyevin "Bir uzaq yaşıl ada" romanına tətbiqən danışdıqda isə metodoloji baxımdan və həm də bu əsərin çərçivələrində biz dil, təfəkkür, mədəniyyət və ədəbi nümunələrin qarşılıqlı dialektik vəhdətdə olduğunu daha çox təşkil etməsini sübut etməyə çalışırıq.

Narrativlər həm real hadisələr, həm də bədii xülya üzərində ərsəyə gələ bilər. "Bir uzaq yaşıl ada" romanında isə bu real hadisələrin müəllif tərəfindən yaradılmış ümumi mənzərəsi olmaqla, oxucu auditoriyasına təsir etməyi nəzərdə tutmuşdur. Bu romanın narrativlərində dayanan ən başlıca məsələ, hətta tarixi faktlar bəzədilsə belə, bu faktlar oxucunu çaşdırmamalı, yayındırmamalıdır. Məmməd Əliyevin bəhs etdiyimiz romanında biz müəllifin bacarıqlı təhkiyəçiliyini heç də yalnız hadisələrin, personajların adlarının sadalanmasında görmürük. O, sanki maraqlı bir mozaik panno üzərində hadisələri zəruri ardıcıllıqlarla düzərək, əsərin detallarına gətirilmiş elementləri və onlar arasındakı münasibətləri inandırıcılıqla təqdim etməklə narrativi qaydaya salıb, baş qəhrəmanın layiq olduğu bir məkan yaradır. Əsərdə yer almış bütün personajlar baş qəhrəmanla həmahənglik təşkil etməklə mətndə parlaq və maraqlı obrazlar yaradır.

Təhkiyənin digər tiplərindən narrativ aşağıdakılara görə fərqlənir ki, onların sırasında onun daha geniş anlayış olması, çoxsaylı interpretasiya imkanlarına malik olması, narrator tərəfindən təhkiyəyə verilən rəngarəngliyi və narrativin monoloq təhkiyə olub, hər hansı olmuş hadisə ilə bağlı hekayət nəzərdə tutulduğu da söylənilir [9, s.225].

Şərh etdiklərimizdən görünür ki, narrativ çoxistiqamətli və çoxyönlü izahları özündə ehtiva etməklə yazıçının, yaxud hər hansı bədii əsər müəllifinin içindən keçənləri, onun müəllifinin öz istək və ehtiyaclarına görə yaratmaq bacarığıdır, Problem yetərincə çoxşaxəli olduğundan onun ayrı-ayrı elementləri üzərində düşünməyə də ehtiyac vardır.

Buna görə də Məmməd Əliyevin bədii yaradıcılığı hərtərəfli öyrənildikdən sonra onun romanlarının bir küll halında öyrənilməsi aktuallaşır. Əslində M.Əliyevin nəsr nümunələri ("Həsrətin o üzü", "Karvan köçər, ötər gedər sədası", "Mavi yaşıl gözlərin işığı" və bir də haqqında daha ətraflı söhbət açdığımız "Bir uzaq yaşıl ada") bir çox cəhətləri – struktur-kompozisiya, ideya-məzmun, obrazların xarakteri və s. baxımdan bir bütöv yaradır.

Ümumiyyətlə, janr ədəbiyyatşünaslar tərəfindən daim canlı dinamik hadisə olmaqla ədəbi sistem daxilində nisbi olaraq dərk edilir. Roman janrı hazırda çoxsaylı konnotasiyalar – fəlsəfidən ideolojiyə, siyasiyə, tərbiyəviyə və s. qədər gedib çıxır. Onların arasında müxtəlif tipli ədəbi nümunələr konkret mövzular ətrafında qruplaşdırılır: məsələn, tarixi, fəlsəfi, psixoloji-mənəvi, fantastik, detektiv, psixoloji, sosial, hiyləgər, sərgüzəştli, satirik, roman-epopeya, roman-menippeya (istehzalı, gülüş doğuran), bioqrafik, avtobioqrafik, roman-utopiya, roman-antiutopiya, tərbiyəedici roman və s. Göstərilən bu təsnifat siyahısından hər birində ədəbi janr özünü sırf, yaxud "təmiz" formatda büruzə vermir və sadalananlardan birinin digərində bu və ya digər əlamətləri özünü göstərir.

## Nəticə / *Conclusion*

Qeyd etdiyimiz kimi, M.Əliyevin roman yaradıcılığı üçün heç də dərin metajanr spesifikası xarakterik deyildir. Onun adlarını çəkdiyimiz romanlarının ədəbi-bədii variasiyalarında obrazların modernist, yaxud postmodernist portretini çəkmək istəyi peyzaj təsvirlərinin universalizmini yaradır.

Bəhs etdiyimiz romanlar dünya ədəbiyyatında nadir təsadüf edilən epoxal-roman-tetralogiya (tetraplix) janrının tərkib hissəsidir ki, onlar dörd hissədən ibarət olmaqla, hər biri birləşmiş süjet və müəllif fikri ilə vahid bütöv əmələ gətirir. Bu tipli əsərlər personaj vahidliyi (bütövlüyü), süjet-kompozisiya quruluşu, bütün hissələrin hamısı üçün vahid məkan və zamanla xarakterizə olunur.

Tetralogiya janrı üçün hansı fərdi xüsusiyyətlər səciyyəvidir: burada süjet ümumiliyi, iştirakçı olan personajların xarakterinin dəyişməzliyi, süjet dərinliyini əks etdirilməli, tarixi və konseptual zənciri fasiləsiz olaraq formalaşdırıb davam etdirməklə, əsərin ideya və mövzu ümumiliyini qoruyub saxlamalı, əvvəlki hissədən sona qədər onlardan hər birində ümumi nüvə dəyişilməz qalmalı, hadisələr məntiqi ardıcıllığa tabe olmaqla əvvəlkiləri genişləndirməli və dərinləşdirməli, emosional və fikri inkişaf yaratmalı, oxucuların intellektual inkişafını kamilləşdirməlidir. Qeyd etdiyimiz bu müddəalardan hər biri tetralogiyanı ədəbi bütöv, yaxud bədii ifadə etmənin unikal forması olmaqla, zəngin və çoxqatlı təcrübə yaratmağa xidmət etməlidir. Dünya ədəbiyyatında tetralogiyanın özünəməxsus şəkilləri Rixard Vaqnerın "Nibelunqlar dairəsi", Maks Qallonun "Napoleon silsiləsi", Con Qolsuorsinın "Forsaytlar haqqında Saqa", Muxtar Auezovun "Abay yolu", Nikolay Georgiyeviç Qarin-Mixaylovskinin "Tyomanın uşaqlığı" ("Gimnaziyaçılar", "Tələbələr" və "Mühəndislər") tetralogiyası və s. göstərmək olar. Beləliklə, M.Əliyevin adlarını çəkib, haqqında bəhs etdiyimiz və onun tetralogiya janrında qələmə aldığı nəsr əsərlərinin bədii nümunələr sırasında özünə layiqli yer tuta biləcəyi arzusu ilə təhlillərimizi sona çatdırırıq.

## Ədəbiyyat / *References*


1. Baxtin M.M. Dostoyevski poetikasının problemləri. Rus dillindən tərcümə, giriş, məqalə və qeydlər M.Q.Qocayevindir. – Bakı: "Kitab aləmi", 2005, 384 s.
2. Əliyev M. Bir uzaq yaşıl ada (Roman. IV kitab). – Bakı, 2025, 276 s.
3. Əliyev M. Həsrətin o üzü. Roman (I hissə). – Bakı: Elm və təhsil, 2021, 520 s.
4. Əliyev M. Karvan köçər, ötər gedər sədası" (Roman). – Bakı: Elm və təhsil, 2021, 388 s.
5. Əliyev M. Mavi-yaşıl gözlərin işığı (Roman). – Bakı: "Optimist" MMC-çap mərkəzi, 2023, 490 s.
6. Белая Г.В., Симонов К.И. Гносеотив /текст// Известия Самарского научного центра РАН, 2005, № 4-5, URL: https://cyberleninka.ru/article/n/gnoseo-ontologicheskya-interpretatsiya-dihtomir-narrativ-tekst.
7. Бердникова М.Д. Жанровая специфика художественного пространства (полифонический роман Ф.М.Достоевского) // Filol. elm. dokt. diss. – Москва, 2020.
8. Маслов Е.С. Что такое нарратив? – Казань: Изд-во Казан. Ун-та, 2020, 116 с.
9. Матвеева Т.В. Полный словарь лингвистических терминов. – Ростов-на-Дону, 2010, с.225.
10. Пелевин В.О. Лампа Мафусаила, или Крайняя битва чекистов с масонами: большой полифонический нарратив. – Москва, 2016, 412 с.
11. Руднев В.Р. Полифонический роман // Полифоническое тело. Реальность и шизофрения в культуре XX века. – Москва, 2010.
12. Тамарченко Н.Д. Монологический роман // Поэтика. Словарь актуальных терминов и понятий // Под ред. Н.Д.Тамарченко. – Москва, 2008.
13. Троцук И.В. Нарратив как междисциплинарный методологический конструкт в современных социальных науках // Вестник РУДН. Серия. Социология, 2004, № 6-7.
14. Цюлин Ч. Анализ полифонии романа Ф.М.Достоевского «Преступление и наказание». https://ceberleninka.ru

## Художественно-философский дискурс и парадигма повествования романа «Один далёкий зелёный остров»

**Низами Мамедов Тагисой**
Доктор филологических наук, профессор
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: nizami.mamedov@mail.ru
ORCİD İD: 0009-0009-9837-4564

**Резюме.** Статья посвящена комплексному филологическому анализу романа Мамеда Алиева «Один далекий зеленый остров» в контексте современных теорий нарратологии и полифонического романа. Произведение рассматривается как часть целого прозаического цикла, объединённого общим сюжетом, системой персонажей и концептуальной структурой, которая охватывает философские, исторические и социокультурные аспекты азербайджанской действительности конца XX – начала XXI века. Особое внимание уделено художественной функции автора-наблюдателя и полифоническому взаимодействию персонажей, где каждый взгляд сохраняет свою автономию и философскую нагрузку.

Роман анализируется с точки зрения жанрово-структурных особенностей, таких как сюжетная концентричность, автобиографическая и философская насыщенность, развитие героя через внутреннюю рефлексию и социальное действие. Также подчеркивается, что произведение представляет собой сложную повествовательную систему, объединяющую элементы линейного и нелинейного нарратива, воспоминаний и исторической хроники. В статье раскрывается значение жанра тетралогии как уникальной формы художественного представления, параллельно с тетралогиями Р.Вагнера, Дж.Голсуорси и других авторов.

Заключение акцентирует внимание на том, что проза Мамеда Алиева отражает не только национальную духовную реальность, но и органично вписывается в международный литературный контекст. Также отмечается, что роман «Один далекий зеленый остров» воссоздаёт яркую панораму общественно-политических, социально-психологических и историко-культурных процессов, произошедших с конца 1980-х годов.

**Ключевые слова:** теория нарратологии и полифонического романа, концептуалыная структура, внутренняя рефлексия, литературный контекст